# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №24 (64) • 14.11.2011

AzadliqRadiosu.az®

**Diplomatlar həbsdə olan gənc fəala baş çəkiblər** səh.2

**10 вопросов Абиеву** səh.7

**İrana qarşı müharibə başlayarsa...** səh.9

**Avrozona dağılır?** səh.10

Mehman Əliyev: **«Xalq istəsə, prezident olaram»** səh.10

**Evlərin sənədləşdirilməsi gözlənilirmi?** səh.11

D.Kemeron: **"Ərəb baharı" İslamla demokratiyanı bir araya gətirdi"** səh.12

**Alman jurnalisti Putinin ailə problemlərindən yazıb...** səh.15

# Gələn ilin büdcəsində şübhəli 7 milyard



İstifadəyə verilmiş Oğuz-Qəbələ-Bakı su kəmərinə 2012-ci ildə yenidən pul ayırmaq planlaşdırılır. İqtisadçılar narahatdır ki, Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, aeroport yolu büdcənin "daimi xərcləri"nə çevrilir...

səh.6

## Məşhur jurnal Azərbaycan haqda nələri heyrətlə yazır?

The Economist: Bir dövlət qulluqçusu izah edir ki, hər kəs iki maaş alır - rəsmi və zərfdə qeyri-rəsmi. Hökumət bütün qeyri-rəsmi ödənişlərin hesabını aparır. «Cinayət o demək deyil ki, oğurlayırsan, cinayət odur ki, oğurlayırsan və bu barədə məlumat vermirsən».

səh.8

Duzlu yod




**40 dərəcə hərarəti olan əsgər növbətçi qülləsində?** səh.2

**İqtidarla müxalifət debatda nə danışacaqlar?** səh.3

Lütfi Zadə: **«Rafiq Əliyev «Nobel» mükafatı ala bilər»** səh.5

**100 ilin nadir videosu** səh.15

# 40 dərəcə hərarəti olan əsgər növbətçi qülləsində?



**«QIZDIRMALI VƏZİYYƏTDƏ NÖVBƏTÇİ OTAĞINA ATIB GEDİBLƏR»**

Naxçıvan Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində qulluq edərkən ötən ilin noyabr ayında xəstəlikdən vəfat etmiş əsgər Məhəmməd Əliyevin atası Abasət Əliyev oğlunun ölüm faktının dərindən araşdırılmadığını və ölümə səbəb olanların cəzasız qaldığını deyir. Ata iddia edir ki, xəstə oğluna tabor rəhbərliyinin biganə münasibəti onun ölümü ilə nəticələnib.

**«OĞLUM BAXIMSIZLIQDAN ÖLÜB»**

Abasət Əliyev deyir ki, həbsxana qülləsində növbətçilik xidməti aparan oğlunu 40 dərəcəlik hərarəti ola-ola növbətçi qülləsinə çıxarıblar. Ancaq hərarətli əsgər cəmi 15 dəqiqə növbədə dayana bilib. Vəziyyətinin ağırlaşdığını görən əsgər yoldaşları onu növbətçi otağına gətiriblər:

«Noyabrın 25-də oğlumla telefonda danışmışam, səsindən hiss olunurdu ki, xəstədir. Həmin gün onu o vəziyyətdə qülləyə çıxarıblar. Noyabrın 26-da səhər saat 7-də növbədən çıxıb növbətçi otağına gəlib. 1 saat sonra növbə rəisi onu yenə də 40 dərəcə hərarəti olmasına baxmayaraq, qülləyə növbəyə çıxarıb. 15 dəqiqə qüllədə dayanandan sonra vəziyyəti ağırlaşıb, əsgər yoldaşları onu növbətçi otağına qaytarıblar. Gün ərzində qızdırmalı vəziyyətdə otaqda qalıb, heç kəs yardım göstərməyib, oğlum baxımsızlıqdan dünyasını dəyişib».

Əsgər Məhəmməd Əliyevin ölümü ilə əlaqədar Naxçıvan Hərbi Prokurorluğunda 1 il əvvəl cinayət işi başlanıb və hərbi taborun feldşeri Amin Babayev cinayət məsuliyyətinə cəlb olunub. O, səhlənkarlıqda təqsirləndirilərək məhkəmə tərəfindən 2 il 6 ay müddətinə şərti cəzalandırılıb.

**FELDŞERİN ETİRAFI**

Amin Babayev əsgərin ölümündə özünü təqsirli bilir: «Noyabrın 26-sı səhər saatlarından əsgər Məhəmməd Əliyevdə yüksək hərarət və təzyiqinin aşağı düşməsini müşahidə etmişdim. Gün ərzində ona bir dəfə iynə vurmuşam. Tez-tez təzyiqini və hərarətini ölçmüşəm, axşam əsgərdən vəziyyəti ilə maraqlandım. Vəziyyətinin normal olduğunu dedi. Mən də növbədən çıxıb evə getdim. Bir neçə saatdan sonra zəng vurub dedilər ki, əsgərin vəziyyəti ağırlaşdığından hospitala götürüblər, ancaq əsgər yolda keçinib». Bu, feldşer Amin Babayevin məhkəmə ifadəsindəndir.

**CƏZASIZ QALANLAR VAR?**

Amin Babayev deyib ki, «əsgərin səhhətində ciddi problem olmadığını gördüm, ona görə də qeydiyyat kitabına onun xəstəliyi və ona iynə vurulması barədə qeydlər aparılmasına ehtiyac görmədim».

Əsgər atası Abasət Əliyev isə deyir ki, oğlunun ölümünə görə məsuliyyəti feldşer yox, hərbi tabor rəhbərliyi və növbə rəisi daşıyır. Onları xəstə əsgəri növbətçiliyə təyin etməkdə, onu vaxtında hospitala köçürməməkdə günahlandırır. O, prezidentə müraciət edərək əsgər oğlunun ölümünün yenidən araşdırılması və ölümdə təqsiri olanların cəzalandırılması üçün kömək istəyib.

***Esmira Cavadova***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru






# Diplomatlar həbsdə olan gənc fəala baş çəkiblər

Böyük Britaniya və Polşa səfirlikləri, habelə Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin bir neçə əməkdaşı bu gün 14 saylı cəzaçəkmə müəssisəsində gənc fəal Bəxtiyar Hacıyevə baş çəkib, onun saxlanma şəraiti ilə tanış olublar. Bəxtiyar Hacıyev hələ ki, saxlanma şəraitindən narazı olmadığını bildirib. ABŞ-ın Harvard Universitetinin məzunu, keçmiş deputatlığa namizəd Bəxtiyar Hacıyev bu il martın 4-də həbs edilib. Gənc fəal bu ilin mayında hərbi xidmətdən yayınma ittihamı ilə 2 il azadlıqdan məhrum edilib. Amma o, həbsinin siyasi fəaliyyətilə bağlı olduğunu deyir.

# Salyanda qaz tələbi ilə aksiya

Noyabrın 12-də rayonun Pambıqkənd kəndinin sakinləri qaz verilməsi tələbi ilə aksiya keçiriblər. Onlar Salyan-Şirvan yolunu bağlamaqla problemə diqqət çəkməyə çalışıblar. Kənd sakinlərinin AzadlıqRadiosuna dediklərinə görə, 7-8 il əvvəl kəndə qaz verilsə də, sonradan kəmərlərdə təmir adı ilə qaz kəsilib. Elə o vaxtdan da evlərdə mavi yanacaq yoxdur: «Kəndimizdə neçə illərdir qaz yoxdur, kəndin ehtiyacını ödəmək üçün odun da yoxdur yandırmağa. Xətlər təmir olunub. Bu il planda var idi ki, kəndə qaz verəcəklər, amma soyuqlar başlasa da, hər hansı addım atılmır».

Bələdiyyə sədri Bəxtiyar Xəlilov isə problemin yaxınlarda həll ediləcəyini deyir: «Hazırda kəndin bir neçə küçəsində qaz kəmərlərində xırda təmir işləri qalıb. Təmirdən sonra «Azəriqaz» kəndin qaz təminatına icazə verəcək və bununla da problem həll olunacaq».

***Maarif Çingizoğlu***

# İqtidarla müxalifət debatda nə danışacaqlar?


İsa Qəmbər və Əli Kərimli

**İqtidarla müxalifətin dialoq masasına gəlməsilə bağlı müzakirələr az qala Azərbaycanın müstəqilliyi ilə yaşıddır. Həm beynəlxalq təşkilatların bu barədə təşəbbüsləri yarımçıq qalıb, həm də tərəflərin təklifləri. Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzovun müxalifət liderləri Əli Kərimli və İsa Qəmbəri debata çağırması ilə bağlı mediada işaran xəbərlər mövzunu bir daha gündəmə gətirib. Bunun ardınca isə AXCP sədri Əli Kərimli yerli mediaya müsahibəsində YAP sədri İlham Əliyevi növbəti dəfə debata çağırdığını bəyan edib.**

### «GÖZDƏN PƏRDƏ ASMAQ»

Əli Kərimli AzadlıqRadiosuna deyir ki, iqtidar təmsilçilərinin bu mövzuda aktivləşməsi «baş qatmaq, gözdən pərdə asmaq üçündür». Qarşı tərəflə debat reallaşarsa, onun müzakirəyə qoyacağı mövzular belədir: «Nəyə görə ailə, sülalə hakimiyyətləri arasında Azərbaycan da olmalıdır? Nə ilə bunu izah edərlər? Niyə Azərbaycan dünyada korrupsiya üzrə lider ölkələrdəndir?..»

Bunlar Əli Kərimlinin dialoq masasına qoyacağı mövzuların bir qismidir. Yeni Azərbaycan Partiyasının debat tərəfi kimi nələri ortaya atacağını öyrənmək mümkün olmadı. Partiyanın bir neçə yetkilisi bu barədə açıqlama vermək istəmədiyini dedi.



Zahid Oruc

### BİR-BİRİNİ SUSDURMAQ İSTƏYİ

Hakimiyyətyönlü Ana Vətən Partiyasının təmsilçisi Zahid Oruc deyir ki, iqtidar-müxalifət dialoqu meydanda şəxslərarası dava deyil, ideya mükaliməsi və mühakiməsi formasında olmalıdır: «Danışmaq yox, bir-birini susdurmaq istəyi kimi bir tendensiya özünü göstərir».

Zahid Oruc debat görüşlərində müzakirə ediləsi məsələlərdən də danışdı: «Azərbaycanda iqtisadi proseslərin gedişi, beynəlxalq əlaqələr, regiondakı situasiya, Qarabağ məsələsinə münasibət, islahatlar, dövlət idarəetmə sistemi, onun şəffaflığı və ya qüsurları, siyasi konsensus və onun şərtləri, siyasi sistemin mükəmməl işləməsi üçün birgə modellərin hazırlanması və s. Onlarla mövzu seçmək mümkündür, yetər ki, məram xoş olsun».

### KİM KİMLƏ DEBATA GETSİN?

Müzakirə olunası məsələlərdən əvvəl açıq qalan bir sual var: «Kim kimlə debata getsin?». Zahid Oruc deyir ki, üzvlərinin sayı YAP-ın təkcə rayon təşkilatının üzvlərinin sayına bərabər olan partiya təmsilçilərinin iddiaları düzgün deyil. Əli Kərimli isə deyir ki, heç nəyi həll etmək imkanı olmayan şəxslərlə müzakirəyə çıxmağın mənası yoxdur: «İlham Əliyevi debata mən çağırmışam... Kompromisli variant da təklif etmişəm ki, özü gəlməsə də, heç olmasa müəyyən səlahiyyət sahibi olan adamları bu debatlarda təmsilçisi kimi müəyyənləşdirə bilər».

### «TƏZYİQLƏR VAR»

Şərq-Qərb Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu deyir ki, hakimiyyətin də debat çağırışlarını mediaya çıxarması təsadüfi deyil: «Mən hesab edirəm ki, bu, sözgəlişi deyil. Burda təzyiqlər də var, amma bu da həlledici deyil. Həlledici məqam ondan ibarətdir ki, Azərbaycan hakimiyyətində artıq xeyli insan başa düşür ki, ölkə ciddi problemlə üz-üzədir. Ona görə də hakimiyyətin müxtəlif pillələrində oturan şəxslər bunu gözəl başa düşürlər. Onlar həm də başa düşürlər ki, müxalifətlə dialoq da lazımdır».

***Durna Səfərli***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**Ermənistan hərbi büdcəsini artırır**



Obama: **«Avrozonada hələ çox işlər görülməlidir»**


**İran Ermənistanla viza rejiminin qaldırılmasını istəyir**


Hüseynbala Səlimov: **"Putin niyə qayıdır?"**



Qorxmaz Əsgərov: **"Azərbaycanda ziyalı zəlzələsi"**

# Rafiq Əliyevin vəzifədən çıxarılması fərqli yozumlarda


Rafiq Əliyev

**Azərbaycan Dövlət Neft Akademiyasında avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri, akademik Rafiq Əliyev noyabrın 4-də vəzifəsindən kənarlaşdırılıb. İşdən çıxarılması ilə bağlı əmrdə onun Əmək Məcəlləsinin 70-ci maddəsinin «Ç» bəndini pozduğu qeyd olunur.**

Amma Ziyalılar Forumu, bir çox siyasi və ictimai təşkilatlar bu addımı alimin hökuməti tənqid edən fikirləri ilə və Ziyalılar Forumu çərçivəsində fəaliyyəti ilə izah edirlər. Rafiq Əliyev bu günlərdə AzadlıqRadiosuna müsahibəsində Harvard Universitetinin məzunu Bəxtiyar Hacıyevin həbsdə olmasını tənqid etmişdi. Ziyalılar Forumu isə ötən həftə yaydığı bəyanatda həbsdə olan bütün fəalların, həmçinin hicab aksiyasında tutulan dindarların azadlığa buraxılmasına çağırırdı.

Hazırda Türkiyədə çalışan dilçi alim Kamil Vəli Nərimanoğlu:

- «Xudu Məmmədov, Azad Mirzəcanzadədən sonra Rafiq Əliyev Azərbaycanın ən böyük alimidir. Ona qarşı bu haqsızlıq, hakimiyyətin Məhəmməd Əmin Rəsulzadəyə, Üzeyir Hacıbəyliyə göstərdiyi haqsızlığın davamıdır. Azərbaycan xalqı bir qrup dağıdıcı qüvvənin əlindədir. Azərbaycanda artıq bütün yaltaqlanmayan ziyalılara qarşı bir hücum var. Amma bu hala heç Afrikanın da hansısa ölkəsində rast gəlinə bilməz. Bu ancaq diktatura rejiminin gerçəkləşdirdiyi bir vəziyyətdir».


Kamil Vəli Nərimanoğlu

Milli Məclisin elm və təhsil komitəsinin üzvü, hakim YAP-dan olan deputat Kamilə Əliyeva:

- «Ölkədə söz azadlığıdır. İstər mənfi, istərsə də müsbət mənada kim harada istəyir, öz fikrini azad şəkildə ifadə edir. Yəni fikrini deməsi ilə bağlı heç bir kəsin qarşısında elə bir qadağa qoyulmayıb. Ona görə də mən inanmıram ki, Azərbaycanda istər alim, istər hansısa başqa bir sahənin adamını, yaxud adi vətəndaşı hansısa bir sözü deməsinə görə işdən azad etsinlər. Yəni bu, mənə inandırıcı görünmür».


Kamilə Əliyeva

Tarix elmləri namizədi Altay Göyüşov da «Facebook» səhifəsində bu məsələyə dair müzakirə açıb. O, hesab edir ki, Rafiq Əliyevə qarşı belə bir addımın atılması hökumətin özünə ziyandır: «İndiki şəraitdə kafedra müəllimliyindən çıxarılmağın Rafiq müəllimin istər elmi, istər ictimai sahədəki statusuna zərrə qədər də mənfi təsiri olmayacaq. Tam əksinə».

Fəlsəfə elmləri doktoru Əli Abbasov isə inanmır ki, Rafiq Əliyevin kafedra müdirliyindən kənarlaşdırılması Dövlət Neft Akademiyasının rəhbərliyinin təşəbbüsü ilə baş versin. O, güman edir ki, bu addım daha yuxarı instansiyanın qərarı ilə atılıb.

***İlqar Rəsul***

# Prorektor: «Rafiq Əliyev dekanın təqdimatı ilə vəzifədən kənarlaşdırılıb»



Azərbaycan Dövlət Neft Akademiyası

**Azərbaycan Dövlət Neft Akademiyasının tərbiyəvi işlər üzrə prorektoru Qasım Məmmədov noyabrın 10-da «Media forum» saytına müsahibə verib.**

*- Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Rafiq Əliyev Azərbaycan Dövlət Neft Akademiyasının avtomatlaşdırılmış idarəetmə sistemləri kafedrasının müdiri vəzifəsindən niyə çıxarılıb?*

- Rafiq Əliyev istehsalat proseslərinin avtomatlaşdırılması fakültəsinin dekanı Ramiz Allahverdiyevin təqdimatı ilə işdən azad olunub. Dekanın təqdimatında göstərilir ki, Rafiq müəllim son vaxtlar uzunmüddətli xidməti ezamiyyətlərə gedir, ona görə də kafedranın idarə olunmasında müəyyən problemlər yaranıb. Hətta bu yaxınlarda kafedranın bir dosentinə əmək intizamının pozulmasına görə töhmət də verilib. Dekanın təqdimatında qeyd olunub ki, Rafiq Əliyev kafedrada qeyri-işgüzar şərait yaradıb. Bunun nəticəsində son vaxtlar iki dosent, bir assistent, iki laborant dözməyərək kafedradan çıxıblar, iş yerlərini dəyişməyə məcbur oldular... Söhbət kafedranın düzgün idarə olunmamasından gedir.

*- Kafedradan çıxıb gedən işçilər kimlərdir?*

- Mən onların kim olduğunu bilmirəm.

*- ADNA rəhbərliyi bu problemlə bağlı indiyədək Rafiq Əliyevlə hər hansı müzakirə aparıbmı, işdən azad olunmasına səbəb kimi göstərilən iradlar onun nəzərinə çatdırılıbmı, işdə dönüş yaratması tələb olunubmu?*

- Məndə bu barədə məlumat yoxdur. Çox güman ki, belə bir müzakirə olmayıb. İnanmıram ki, rəhbərlik onunla görüşsün.

**Müsahibənin tam mətnini AzadliqRadiosu.az saytından oxumaq olar.**

# Lütfi Zadə: «Rafiq Əliyev «Nobel» mükafatı ala bilər»

**Akademik Rafiq Əliyevin Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifəsindən kənarlaşdırılmasına onun yaxın dostu, Kaliforniya Berkli Universitetinin professoru Lütfi Zadədən münasibət öyrənməyə çalışdıq.**

*- Bu günlərdə akademik Rafiq Əliyevi vəzifəsindən kənarlaşdırıblar.*

- Nə baş verib? Mənə izah edə bilərsinizmi niyə belə olub? Mənim üçün Rafiq Əliyev çox görkəmli bir alimdir. Ola bilsin ki, o, «Nobel» mükafatı alacaq. Düşündüm yəqin şayiə olar onun işdən çıxarılması. Deməli, gerçək imiş. İşdən çıxardıblarsa, bəs indi o nə edəcək?

*- Qərarda Rafiq Əliyevin əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməmə, vəzifələrini kobud şəkildə pozması səbəbindən vəzifədən azad edildiyi qeyd olunur. Sizcə, onu məsuliyyətsiz adam hesab etmək olar?*

- Mən bunu başa düşmürəm. O, həmişə çox məsuliyyətli adam olub.

**«O, «NOBEL» MÜKAFATI ALA BİLƏR»**

*- Rafiq Əliyev tez-tez öz çıxışlarında ölkədə korrupsiya, insan hüquqlarının pozulması hallarından danışır, hakimiyyəti tənqid edir. Belə fikirlər var ki, onu işdən bu cür mövqeyinə görə kənarlaşdırıblar...*

- Bilmirəm. Buradan mənə çətindir bütün bunların səbəbini anlamaq. Bəli, mən eşitmişəm ki, o, hakimiyyəti tənqid edir. Amma mənim onunla istər telefon söhbətlərimdə, istərsə də hərdən görüşdüyümüz konfranslarda o, heç vaxt hakimiyyəti tənqid etməyib. Ona görə də bu tənqidin mahiyyətinin nədən ibarət olmasını anlaya bilmirəm. Deyə biləcəyim odur ki, Rafiq Əliyev Azərbaycanda yox, bütün dünyada ən görkəmli alimlərdən biridir. Və o, «Nobel» mükafatı ala bilər. Mən onun hakimiyyəti tənqid etməsindən və sair bu kimi məsələlərdən danışmıram. Mən onun barəsində bir alim kimi danışıram.

*- Bax, belə bir alimi vəzifəsindən kənarlaşdırmaq Sizcə, nə dərəcədə ədalətlidir?*

- Mən belə suallara cavab verə bilmərəm. Çünki mən bütün bunlardan çox uzağam. Bu barədə danışa bilmərəm. Mən artıq sizə demiş olduğumu bir də təkrar edirəm. Rafiq Əliyev dünyanın ən görkəmli alimlərindən biridir. Amma o, hakimiyyəti tənqid edir, yaxud etmir, mən bilmirəm...

**«MƏNİM AZƏRBAYCAN RƏHBƏRLİYİ İLƏ ÇOX YAXŞI MÜNASİBƏTİM VAR»**

*- Siz həmişə Azərbaycan rəhbərliyinin işini pozitiv dəyərləndirmisiniz. Necə düşünürsünüz, bu hakimiyyət belə bir alimin vəzifədən kənarlaşdırılmasına yol verə...*



Lütfi Zadə

- Mənim Azərbaycan rəhbərliyi ilə çox yaxşı münasibətim var. Mənim prezident İlham Əliyevə, Əli Abbasova (rabitə və informasiya texnologiyaları naziri - İ.R) və digərlərinə böyük hörmətim var. Amma mən indi Bakıda baş verənlər barədə fikir söyləyə bilmərəm.

*- Mən istəyirdim deyəm ki, Siz prezidenti və digərlərini tanıyırsınız. Necə hesab edirsiniz, onlar belə bir alimi hansısa tənqidlərinə, yaxud insan hüquqları, demokratiya barədə düşüncələrinə görə vəzifədən kənarlaşdırmağa qadirdirlərmi? Çünki indi belə iddialar səslənməkdədir...*

- Mən bu suala cavab verə bilmərəm. Bu, artıq mənim işim deyil...

***İlqar Rəsul***

# Cəlal Əliyev: «Elmlə məşğul olan insanın əsas məqsədi...»



Cəlal Əliyev

**«Elmlə məşğul olan insanın əsas məqsədi həmişə qabağa baxmaq, yeni sahələri inkişaf etdirmək, təzə ideyalar irəli sürməkdir». Bu fikirləri Milli Məclisin deputatı, prezident İlham Əliyevin əmisi, akademik Cəlal Əliyev AzərTAc-a müsahibəsində deyib. Cəlal Əliyev ötən əsrin 70-ci illərində Heydər Əliyevin keçmiş SSRİ-nin müxtəlif respublikalarına hər il yüzlərlə tələbə göndərdiyini bildirib. Akademikə görə, indi onlar xaricdə maraqlı elmi axtarışla məşğuldurlar.**

Cəlal Əliyev onun təşəbbüsü ilə SSRİ dövründə yerli ali məktəbləri bitirən istedadlı tələbələrin seçilib müxtəlif elm mərkəzlərinə, xüsusilə Sankt-Peterburqa, Novosibirskə göndərildiyini deyib: «O vaxt Novosibirskdə elmi mərkəz fəaliyyət göstərirdi. Mənim təşəbbüsümlə oraya əsasən riyaziyyatçılar göndərilirdi. Bəzən belə deyənlər də olurdu ki, bu elmi mərkəz tanınmaya-tanınmaya Cəlal Əliyev buraya niyə bu qədər riyaziyyatçı tələbə göndərir? Həmin vaxt o qədər də tanınmayan bu elmi mərkəz sonra ən yaxşılardan biri oldu. Ona görə də elmlə məşğul olan dünəni, bu günü yox, sabahı, o biri günü görməlidir. O riyaziyyatçılar indi ABŞ, Almaniya, İngiltərə, Avstraliya, Kanada, Braziliya kimi bir çox xarici ölkələrdə uğurla işləyir və elmə töhfələr verirlər», -deyə Cəlal Əliyev müsahibəsində bildirib.




Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiz.

# Gələn ilin büdcəsində şübhəli 7 milyard

**İQTİSADÇILAR ÇOX NARAHATDIR**

Hökumət 2012-ci ilin 17 milyard manatlıq dövlət büdcəsindən investisiya layihələrinə 7 milyard manat xərcləməyi planlaşdırır. Yola saldığımız 2010-cu ildə büdcənin həmin investisiya xərcləri bundan iki dəfə az - 3 milyard manat idi. Bu məqam iqtisadçı ekspertləri çox narahat edir. İqtisadi Təşəbbüslərə yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev deyir ki, əslində onların narahatlığı investisiya layihələrinə ayrılan vəsaitlərin artırılmasında deyil. Narahatlıq hər il artan bu vəsaitlərin necə xərclənməsi ilə bağlıdır. Azər Mehtiyev investisiya büdcəsini qapalı büdcə sayır. Deyir ki, layihələr üzrə vəsaitlərin həcmi açıqlansa belə, bu sahədə şəffaflıq yoxdur: "Şəffaflığın çox mühüm tələbləri odur ki, bu vəsaitlərin hara və necə xərclənməsi göstərilsin".

**İSTİFADƏYƏ VERİLƏN KƏMƏRƏ TƏZƏDƏN PUL AYRILIR...**

İqtisadçı misal da çəkir ki, 370 milyon manata başa gələcəyi bildirilən Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişinə indiyə qədər 1 milyard dollara yaxın pul



Oğuz-Qəbələ-Bakı su kəmərinin təməlqoyma mərasimi, mart 2007-ci il

xərclənib. Üstəlik, hökumət 2012-ci ildə də artıq istifadəyə verilmiş bu kəmərə yenidən pul ayırmağı planlaşdırır: "Düzdür, burda birbaşa Oğuz-Qəbələ-Bakı su kəməri haqqında danışılmır. Qeyd olunur ki, həmin vəsait kəmərin istismarı ilə bağlı Bakıda su-kanalizasiya sisteminin təkmilləşdirilməsi üçün nəzərdə tutulub. Amma fakt-faktlığında qalır ki, həmin layihənin tamamlanmasına böyük həcmdə vəsaitlərin ayrılması prosesi davam edir".

**"KORRUPSİYATUTUMLU" LAYİHƏLƏR...**

İqtisadçı Natiq Cəfərli də bu məsələdə həmkarının fikirlərini bölüşür. O deyir ki, hökumət "korrupsiyatutumlu" layihələrə ilbəil əsaslandırılmamış pullar ayırdıqca, şəffaflıqla bağlı bir o qədər suallar doğuracaq: "Bu şübhələri aradan qaldırmaq hökumətin işidir. Gərək çıxıb açıqlasın ki, belə xırda layihəyə niyə bu qədər vəsait xərcləyir. Misal üçün, aeroport yolunda hər iki tərəf üzrə çəkiliş başa çatıb. Amma yenə də həmin layihələrin tamamlanmasına 2012-ci il büdcəsində vəsait nəzərdə tutulub. Bayıl dairəsindən Bayraq meydanına olan 2 kilometr yolun çəkilişinə 65 milyon manat vəsait nəzərdə tutulub. Bu müəyyən kommunikasiyaların dəyişdirilməsi ilə əsaslandırılsa da, çox böyük məbləğdir".


Heydər Əliyev Mərkəzinin planı

**HEYDƏR ƏLİYEV MƏRKƏZİNƏ DƏ YENƏ PUL AYRILIR...**

İqtisadçı əlavə edir ki, neçə illərdir Bakıda tikilməkdə olan Heydər Əliyev Mərkəzinə də ilbəil ayrılan pulların hesabatı açıqlanmır. İqtisadçıların hesablamalarına görə, sözügedən mərkəzin tikintisinə indiyə qədər 250 milyon manatdan artıq pul xərclənib. Gələn ilin investisiya xərclərində yenidən həmin mərkəzin tikintisinə vəsait ayrılacağı nəzərdə tutulub.

Natiq Cəfərli: "Bu mərkəzin hansı səbəbdən tikilməsi bir yana qalsın, ayrılan vəsaitin də qeyri-şəffaf xərclənməsi bu tip layihələrin həyata keçirilməsində xeyli şübhələr yaradır".

Siyahı bununla bitmir. Qusardakı turizm mərkəzinin tikintisinə indiyə qədər 500 milyon manatdan artıq pul xərclənsə də, gələn ilin büdcəsində bu layihəyə yenə vəsait ayrılması nəzərdə tutulur. 2012-ci ilin büdcəsində investisiya layihələrinə ən çox vəsait nəqliyyat sektoru üçün nəzərdə tutulub - 2 milyard 726 milyon manat.

**HÖKUMƏT TƏRƏFDARI DA HESABI DÜZ TUTMAĞI MƏSLƏHƏT GÖRÜR**

Ana Vətən Partiyası (AVP) sədrinin iqtisadi məsələlər üzrə müavini Əli Hacıyev isə investisiya xərclərindən şübhələri daha çox qeyri-dəqiq hesablamalarla əlaqələndirir. O deyir ki, layihələr konkret hesablanmadığından hökumət bir layihəyə ilkin hesablanan məbləğdən artıq vəsait ayırmağa məcbur olur. Amma o, investisiya layihələrində korrupsiya amilini də inkar etmir: "O layihələr daha konkret olmalıdır. Bir də həmin layihələrlə bağlı dövri olaraq Milli Məclisə hesabat verilməsi, yaxud da hökumətin iclasında həmin vəsaitlərin xərclənməsi ilə bağlı ictimaiyyətə açıqlama verilməsi məqsədəuyğun olardı. Şübhəsiz, artıq vəsait xərclənirsə, bu, korrupsiyanın əlamətidir".

**İNVESTİSİYA "PRİNSİPİ"**

İqtisadçı Azər Mehtiyev isə bütün şübhələri bir yerə toplayıb bu nəticəyə gəlib: hazırda investisiya layihələrinə vəsait həmin pulu daha çox harada mənimsəmək olar "prinsipi" ilə yönəldilir. Həm də dediyinə görə, bu, əksər müstəqil iqtisadçıların ortaq qənaətidir.

***Maarif Çingizoğlu***




**Dəyərli oxucular!**

AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# 10 вопросов Абиеву

**Судя по новостям, за последний короткий отрезок времен от разных болезней скончались трое солдат Национальной армии Азербайджана. А до них был еще один, который скончался в сентябре прямо в бакинском аэропорту, когда Минобороны отправляло его на лечение в Турцию...**

**ОФИЦИАЛЬНЫЕ ДАННЫЕ**

По официальным данным, с начала года в Национальной армии погибло и умерло 89 человек:

16 из них погибли от неуставных отношений с применением огнестрельного оружия;

13 - в результате дорожно-транспортных происшествий;

13 несчастных случаев разного рода - от снежной лавины, отравления угарным газом, от удара молнией, удара электротоком и т.д.,

12 самоубийств,

12 – от пуль армянских снайперов,

12 - от болезней,

9 - от других причин.

**ОТВЕТ МИНОБОРОНЫ**

Замначальника пресс-службы Минобороны Теймур Абдуллаев заявляет, что «Военная прокуратура расследует наличие в действиях причастных лиц состава преступления», а по вопросу смерти от болезни трех солдат говорит, что: «19 военнослужащих были наказаны. Трем из них был сделан выговор, двум же был сделан строгий выговор. Шестерых предупредили. Четверых понизили в звании, еще 4 военнослужащих освобождены от своих должностей. В приказе министра также имеются положения, чтобы такие случаи больше не повторялись».

Высокая смертность в азербайджанской армии вообще порождает множество «положений», но я не об этом.

**ВОПРОСЫ**

Ответ Теймура Абдуллаева породил больше вопросов, чем дал ответов. У меня зародился десяток таковых, которые адресую министру обороны Азербайджана, генерал-полковнику Сафару Абиеву:

1) Заболели ли умершие солдаты этими болезнями в период прохождения службы в Национальной армии, - если учесть, что один из них, например, успел прослужить всего 26 дней, - или были призваны уже больными или ослабленными?

2) Если они заболели в армии, то каковы условия в Национальной армии Азербайджана, что здоровые, признанные годными к строевой молодые люди не только заболевают, - это бывает, - а вместо того, чтобы излечиться, умирают от этой болезни?

3) Если они были призваны уже больными, то как это случилось, господин генерал-полковник? Как случилось, что военно-медицинские комиссии в райвоенкоматах признали годными к военной службе больных молодых людей призывного возраста?

4) Кто именно эти 19 наказанных военнослужащих? В чем заключается их вина, или степень вины в смерти солдат от болезней?

5) Есть ли среди наказанных военнослужащих врачи, члены медкомиссий райвоенкоматов, которыми были призваны в армию трое «умерших от болезней» солдат?

6) Если врачей, членов медкомиссий райвоенкоматов среди наказанных нет, то почему? Если есть, то как эти врачи наказаны – получили выговор, строгий



Сафар Абиев

выговор или освобождены от занимаемой должности?

7) Есть ли среди наказанных военные врачи тех частей Минобороны, где служили умершие, и которые обследовали этих трех солдат по долгу службы? Есть ли среди наказанных их начальники?

8) По словам замначальника пресс-службы Минобороны, в вашем приказе «имеются положения, чтобы такие случаи больше не повторялись». Считаете ли вы, что подобными приказами можно если и не предотвратить повторение подобных случаев, то хотя бы значительно уменьшить их количество?

9) Если считаете, что можно, почему подобный приказ вы не отдали раньше, намного раньше? Разве в таком случае нельзя было бы избежать многих подобных смертей молодых парней, граждан Азербайджана?

10) Считаете ли вы, что долгое молчание, неубедительные комментарии и заявления по поводу смерти этих 3 солдат, а также отсутствие обстоятельного, по фактам заявления пресс-службы Минобороны, которое дало бы ответ на эти и многие другие вопросы, бросает тень на военное министерство? И не только на министерство, а также на честь мундира его руководителей, включая вас, господин генерал-полковник?

***Чингиз Султансой***

# Заявление Форума интеллигенции



**Форум азербайджанской интеллигенции, 29 сентября 2011**

Форум азербайджанской интеллигенции сделал в среду заявление в связи с освобождением от работы ученого Рафика Алиева. Авторы заявления считают, что Рафик Алиев освобожден от должности заведующего кафедрой Азербайджанской государственной нефтяной академии "именно по политическим мотивам": "Рафик Алиев несколько лет назад был избран в действительные члены Национальной академии наук, но результаты выборов были аннулированы вопреки закону и правилам. Спрашивается, если руководитель президентской администрации Рамиз Мехтиев, будучи «специалистом» по выброшенному на свалку истории «научному коммунизму», может быть избран в действительные члены НАНА, то почему не может быть избран в действительные члены азербайджанской академии наук Рафик Алиев, представляющий мировую науку?"

В заявлении также говорится, что "такими бессмысленными насильственными действиями невозможно заставить интеллигенцию, желающую восстановления законности, правосудия, справедливости и реформ в стране, отступить от своих целей". Авторы заявления призывают власти "осознать ответственность за положение в стране, сделать выводы из происходящих в мире событий".

***Саадат Акифгызы***

# Məşhur jurnal Azərbaycan haqda nələri heyrətlə yazır?


Bakı, 2010

**Bütün dünyada məşhur olan «The Economist» jurnalı Azərbaycan haqda yazı dərc edib. Məqalənin xülasəsini təqdim edirik:**

## The Economist: «Hər kəs iki maaş alır - rəsmi və zərfdə»

Azərbaycanın paytaxtı Bakıda Xəzər dənizinin sahillərində gəzəndə, burnuna neftin iyi dəyir. Sən burada ya nefti, ya da onun bəhrəsini görə bilərsən… Neft pulları sovetlərin elə də sevimli şəhəri olmayan Bakını gözqamaşdıran paytaxta çevirib. Ancaq yerli sakinlərin tez-tez evlərindən çıxarılması halları da baş verir. Neft pulları dəyişikliyə müqavimət göstərən avtokratik və korrupsiyaya uğramış siyasi sistemi qoruyub saxlayır.

### ƏRƏB İNQİLABLARI DALĞASI NİYƏ DAYANDI?

Azərbaycanı İlham Əliyev idarə edir. O, prezidentliyi atasından miras alıb. Atası Heydər ağıllı KQB generalı olaraq Azərbaycanı sovet dövründə idarə edib. Oğlu 2003-cü ildə hakimiyyətə gələndə, çoxları onu Moskvada təhsil almış, atasının bacarıqları olmayan «qızıl kimi oğlan» sayırdı. Ancaq ötən illər ərzində o, hakimiyyətini möhkəmləndirib, müxalifəti sıxışdırıb, rəqiblərini məhv edib, prezidentliyə limiti götürüb. O, həmçinin ölkənin sürətlə artmaqda olan neftə bağlı inkişafına da nəzarət edib.

Bakının mərkəzində nümayiş olunan sərvət şəhər kənarlarına çıxmasa da, sadə azərbaycanlıların da gəlirləri artıb. Yoxsulluq azalıb.

Ərəb inqilabları dalğasının Bakı sahillərində dayanması da bununla izah oluna bilər. Martda bir neçə yüz nümayişçini polis dağıtdı; 14 nəfər hələ də həbsdədir. Hökumət narazılığın səbəbini qismən azaltmağa çalışdı, hətta müvəqqəti olaraq korrupsiya ilə kiçik miqyasda mübarizə də apardı - azından narazılıq səngiyənəcən.

Qərbin Azərbaycanı tənqid etməyə nə iradəsi, nə də gücü var. Amerika üçün Azərbaycan Əfqanıstana tranzit marşrutudur. Avropa üçün o, qeyri-rus qazının mühüm potensial mənbəyidir. Qaz və coğrafiyası Azərbaycana beynəlxalq yük qazandırsa da, əslində rejimi saxlayan neftə əsaslanan qorxu, təhdiddir.

### RAMİZ MEHDİYEV VƏ OLİQARXLAR

Müxalifət dişsizdir, ancaq bu, o demək deyil ki, siyasət ölüb. Bunu bir rəsmi deyir. Siyasət sistemdə bir neçə oliqarx qrupların balanslaşdırılmasında özünü göstərir. Klan maraqlarına vasitəçilik edən əsas fiqur Prezident Administrasiyasının 73 yaşlı rəhbəri Ramiz Mehdiyevdir. O, Heydər Əliyevin vaxtında da həmin vəzifədə olub və məhz Heydər Əliyev ona oğlunu hakimiyyətdə saxlamağı etibar edib.


İlham Əliyev və Kəmaləddin Heydərov

Cənab Mehdiyev Daxili İşlər Nazirliyi və dövlət məmurlarına nəzarət edir, oliqarxlar isə iqtisadiyyatı idarə edir. Ən güclülərdən biri Fövqəladə Hallar naziri Kəmaləddin Heydərovdur. Onun bəstələrini pop-ulduzlar oxuyurlar. O, gömrüyə də nəzarət edir. London İqtisadiyyat Məktəbini bitirən, Britaniya kral ailəsi ilə əlaqələri olan oğlu ilə birlikdə əsl biznes imperiyası qurublar. Bu imperiyaya balıqçılıq və kürü, həmçinin mülkiyyət və tikinti sahəsindəki monopoliya daxildir.

### GİZLİ İQTİSADİYYAT

İqtisadiyyatın böyük hissəsi gizlidir. Azərbaycana ixrac olunan və idxal kimi qeydə alınan mallar arasındakı boşluğa baxıb «qara iqtisadiyyat»ı görmək mümkündür. 2003-2009-cu illərin məlumatlarını təhlil edən iqtisadçı Qubad İbadoğlu deyir ki, bu rəqəm 10 milyard dollara bərabərdir.

Bir dövlət qulluqçusu izah edir ki, hər kəs iki maaş alır: rəsmi və zərfdə qeyri-rəsmi. Hökumət bütün qeyri-rəsmi ödənişlərin hesabını aparır. «Cinayət o demək deyil ki, oğurlayırsan, cinayət odur ki, oğurlayırsan və bu barədə məlumat vermirsən». Hökumət asanlıqla rüşvəti vergiyə çevirə bilərdi. Araşdırmaçı jurnalist Xədicə İsmayılın fikrincə, zərflər adamları minnətdar edir, razı salır, vergi isə onları tələbkar vətəndaşlara çevirir.

Ancaq bütün bu sistem daim artan pul qazanından asılıdır. 2005-2008-ci illərdə Azərbaycanın iqtisadiyyatı 25 faiz artıb. Bu il neft istehsalına investisiya qoyuluşu başa çatdığından artım 1 faizdən az olacaq. Neft pulları inkişaf illüziyası yaradır, iş yerləri yox. Baxmayaraq ki, neft istehsalı güclüdür və ölkə pulsuz qalmayacaq, inkişaf etmək üçün islahatlar lazımdır. İndiliksə hökumət neftin iyindən o qədər keflənib ki, gələcək barədə fikirləşmir.

Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.




Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17)
Telefon: 436 – 77 - 41
Elektron ünvan: efir@azadliqradiosu.az


İrandakı Bushehr nüvə zavodu

# Ekspert: «İran 4 kilotonluq bomba yaratmağa doğru gedir»

**Britaniyanın Xarici İşlər naziri William Hague deyib ki, "İranla mübahisə təhlükəli həddə çatıb". "Münaqişə riski böyüyür". O bildirib ki, Britaniya hökuməti yaxın vaxtlarda İrana qarşı birtərəfli sanksiyalarını elan edəcək. Sanksiyalar İranın "maliyyə, neft-qaz sektoruna və nüvə proqramı ilə bağlı fərdlərə qarşı yönələcək". Fransanın Xarici İşlər naziri Alain Juppe deyib ki, Fransa BMT-nin Təhlükəsizlik Şurasının çağırılmasını və İrana qarşı yeni sanksiyaların müzakirə olunmasını istəyib.**

Müşahidəçilərin fikrincə, Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) son hesabatı Qərb liderlərinə İrana qarşı yeni və çox sərt sanksiyalara tam əsas verir.

**İNDİKİ HESABATIN ƏVVƏLKİLƏRDƏN PRİNSİPİAL FƏRQİ**

BAEA-nın İranın nüvə proqramı haqda əvvəlki hesabatlarında deyilirdi ki, agentlik İranın nüvə proqramının hərbidə mümkün istifadəsindən narahatdır. İndiki bu son 25 səhifəlik hesabatda isə deyilir ki, İranın nüvə proqramının nüvə silahları ilə bağlı spesifik məqamları var və bu, agentlik üçün yeni vəziyyət yaradır. İran isə bildirir ki, öz nüvə proqramından "bir damcı da geri çəkilməyəcək". Bunu Beynəlxalq Atom Enerjisi Agentliyində İran nümayəndəsi Ali Ashgar Soltanieh deyib.

**4 KİLOTONLUQ BOMBA?**

İran nüvə silahı düzəltməkdə nə qədər irəliləyib? BMT-nin nüvə silahları üzrə keçmiş müfəttişi, hazırda Vaşinqtondakı beyin mərkəzinin – Elm və Beynəlxalq Təhlükəsizlik İnstitutunun başçısı David Albright Daily Telegrapha deyib ki, İran təxminən 4 kiloton gücündə atom bombası yaratmağa gedir. Yaponiyanın Xirosima şəhərinə atılan bomba 12-18 kiloton idi. Bu bomba 130 min adam qırdı.

Albright sovet aliminin köməyi ilə İranın yaratdığı R265 detonatorunun diametri və Pakistanın atom bombasını yaradan Aq Khandan alınan bomba dizaynına əsasən bu nəticəyə gəlir ki, İran yerdən onlarla metr hündürlükdə partlaya bilən xırdaölçülü nüvə başlığı düzəltmək istəyir. Albright belə bir nüvə başlığının Pakistanda 1999-cu ildə sınaqdan çıxarıldığını bildirir.

Rusiya və Çin isə qəti şəkildə İrana qarşı sanksiyaların əleyhinədir.

***Elxan Nəsibli***

# İrana qarşı müharibə başlayarsa...

**Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) İranın nüvə proqramı ilə bağlı hesabatından sonra BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul edilmiş Azərbaycanın indiki situasiyada hansı mövqeyi tutacağı kimi məsələləri siyasi dairələrdə müzakirə obyektinə çevirib.**

Xarici İşlər Nazirliyinin sözçüsü Elman Abdullayev deyir ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzvlüyü rəsmən 2012-ci ilin yanvarın 1-də başlayır. Amma Azərbaycan regionun dövlətləri ilə mehriban qonşuluq siyasətinə üstünlük verir: « Bunu nəzərə alaraq həmişə hər hansı münaqişənin, qarşıdurmanın əleyhinə çıxmışıq».

ZƏRDÜŞT ƏLİZADƏ: **«İRAN ƏFQANISTAN, İRAQ DEYİL»**

Politoloq Zərdüşt Əlizadə hesab edir ki, ABŞ, eləcə də İsrail bu hesabata əsaslanıb, əlbəttə ki, İranı vura bilərlər. Amma unutmaq lazım deyil ki, İran nə Əfqanıstan, nə də İraqdır. Bu, tamam fərqli bir rejimdir: «Əgər belə olsa, İran İsrailə və əli çatacaq yerlərdə Amerikanın mənafelərinə, hərbi hissələrinə hücum edəcək. İranın İraqa,


Zərdüşt Əlizadə

Əfqanıstana, Fars körfəzinə və hətta Azərbaycana da əli çatır. Əgər İrana hücum etsələr, İsraili neftlə təmin edən Azərbaycanın neft infrastrukturu da təhlükələrə məruz qala bilər».

Zərdüşt Əlizadə deyir ki, Azərbaycan bu məsələdə neytral mövqe tutmalı və hər hansı ziddiyyətli məsələnin, beynəlxalq münaqişənin yalnız dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməlidir.

QƏNİMƏT ZAHİD: **«İRAN TƏHLÜKƏDİR»**

«Azadlıq» qəzetinin baş redaktoru Qənimət Zahid: « Nüvə silahı olan İran, ilk növbədə Azərbaycan üçün, eləcə də Türkiyə üçün təhlükədir. Nüvə silahı olan İran birdən- birə sol yollarla özünə üstünlük qazandırmağa çalışan bir dövlət olmaq şansı əldə edir».

ARİF YUNUS: **«MÜHARİBƏ OLMAYACAQ»**

Konfliktoloq Arif Yunus bu günlərdə ABŞ-da keçirdiyi görüşlərdə eşitdiklərinə əsaslanaraq deyir ki, o, İrana qarşı hər hansı hərbi müdaxilənin baş verəcəyinə inanmır. Deyir ABŞ-da anlayırlar ki, bu gün İrana qarşı müharibə variantı mümkün deyil. Digər tərəfdən, seçkilər ərəfəsində olan ABŞ-ın özü də bunu istəmir: «Əlavə nəsə bir- iki sanksiya ola bilər».

Arif Yunus da hesab edir ki, Azərbaycanın bu prosesdə Qərblə İran arasında


Arif Yunus

seçim edib çətin vəziyyətə düşməməsi üçün neytral mövqe tutması daha münasibdir.

***İlqar Rəsul***

# «Xalq istəsə, prezident olaram»



Mehman Əliyev

**AzadlıqRadiosunun «İşdən sonra» proqramında 9 Noyabr - Bayraq Günü «Bayraq altında baş verənlər»dən danışan «Turan» İnformasiya Agentliyinin direktoru Mehman Əliyev belə deyib. Onun dediklərindən bəzi sitatları nəzərinizə çatdırırıq:**

**BAYRAQ HAQDA**

- «Sovet dövründə belə bir bayram yox idi. Ancaq bayrağa daha çox hörmət var idi...».

-«Bayrağa münasibət onun ölçüsündən asılı olmamalıdır, bizim əməllərimizdən, işlərimizdən, dövlətə-millətə xidmətdən keçməlidir».

- «1988-89-cu illərdə bayrağı meydana çıxaranlar indi ya işsizdirlər, ya türmələrdədirlər, ya təqib olunurlar. Bayrağı tapdalayanlar, o bayrağı tanımayanlar, ona qarşı çıxanlar hakimiyyətdə».

**ZİYALILAR HAQDA**

- «Bizim üstümüzdə ucalan ən böyük rəmz azad sözdür. Biz onu təmin edə bilsək, Şuşanı da götürəcəyik, burda başqa proseslər də gedəcək. Güclü bir cəmiyyət olacaq. Və o bayraq ən yüksək zirvələrdə dalğalanacaq...».

- «Qarabağ problemini ancaq demokratik rejimlər həll edə bilər. Yəni Azərbaycanda və Ermənistanda demokratik yolla hakimiyyətə gəlmiş hökumətlər olmalıdır...».

- «Məncə, Rafiq Əliyevə qarşı atılmış bu addımın ciddi effekti olmayacaq. Narazılıqlar var, belə getsə, narazılıqlar daha da artacaq. Hesab edirəm ki, bu yolla bunun qarşısını almaq çətindir...».

- «Son zamanlar mətbuatda durum daha da pisləşir. Mətbuatın özündə narazılıqlar var. Baxmayaraq ki, çoxları hakimiyyətə satılıb, narazılıqlar, daxili etirazlar var...».

**HAKİMİYYƏT HAQDA**

- «Korrupsiya ilə mübarizə bunların özlərinin istəyi deyil. Bunlar məcburiyyət şəklində bunu deyirlər. Beynəlxalq təşkilatlar bunu tələb edir...».

- «Bu ölkədə yaradılan sistem çox insanları əzir. İnsanların hamısı - məmuru da, kasıbı da qorxu içində yaşayır...».

- «Mən vuruşuram, nə bacarıram edirəm. İtkilərİm də var, uğurlarım da. Mən bu prosesdəyəm və öz yolumu gedirəm...».

- «Xalq çağırsa, istəsə, mən prezident olaram».

***Şahnaz Bəylərqızı, Kamran Mahmudov***

# Avrozona dağılır?

**Avropa Birliyinin İqtisadi Məsələlər üzrə Komissarı Olli Rehn deyib: "Xahiş edirəm, bəd xəbər gətirəni və ya bəd proqnoz verəni güllələməyin. Sabah ola bilər yaxşı xəbərlər gətirəcəm. Ancaq bu gün Avropa iqtisadiyyatının vəziyyəti çox tutqun və qaranlıqdır".**

İtaliyada hökumət bondlarının faizi 7-ni keçdi. Bunu bütün agentliklər, qəzetlər öz yazılarının əvvəlinə , hətta başlığına çıxarıblar: İtaliyanın vəziyyəti o qədər pisdir ki, hökumət hazırda borcu ilə 7 faizdən aşağıya tapa bilmir. 7 faiz kritik hədd hesab olunur. Məhz 7 faiz həddində 2009-cu ildə İrlandiya və Portuqaliya xaricdən kömək istədilər. Avropa pulun əvəzində sərt qənaət tələb edəndə bu ölkələrin əhalisi öz hökumətlərindən üz döndərdilər. İndi eyni hadisələr Yunanıstanda və İtaliyada təkrarlanır.

**İTALİYA NƏ İRLANDİYADIR, NƏ YUNANISTAN**

New York Times yazır ki, İtaliya balaca ölkə deyil ki, iflasına imkan verilsin, ya da qıraqdan köməklə xilas oluna bilsin: İtaliya çox böyükdür. Ümumi Daxili Məhsula görə İtalya iqtisadiyyatı Avropanın 4-cü, dünyanın 8-ci iqtisadiyyatıdır. İtaliya iqtisadiyyatı böyüklüyünə görə Almaniya iqtisadiyyatının 70 faizi həcmindədir. Avropa Birliyinin daxili məhsulunun səkkizdə birini İtaliya verir.

Economist İntelligence Unitin Barclays Wealth Təşkilatına istinadla verdiyi məlumata görə, İtaliyada dollarla götürəndə 280 min milyonçu var. Forbes jurnalına görə, İtaliyada 12 milyarder var. İtaliya milyarderlərin sayına görə Avropa Birliyində yalnız Almaniyadan geri qalır. Fransa, İsveçrə kimi ölkələrdən qabaqdadır. Economist jurnalı yazır ki, son bir gününü Avropa Mərkəzi Bankı (AMB) bazarda keçirib. AMB kütləvi sürətdə İtaliya bondlarını alır ki, faizi aşağı sala bilsin.

**BAŞ NAZİRLƏRİ QOVMAQLA VƏZİYYƏTİ BİR NEÇƏ AY ƏVVƏL DÜZƏLTMƏK OLARDI**

Böhran yayılmaqdadır. "New York Times" yazır ki, Fransa hökuməti növbəti büdcə ixtisarını yenicə elan edib. Fransada qorxurlar ki, İtaliyadan sonrakı qurban Fransa olsun.

"Daily Telegraph" yazır ki, avrozona




rəhbərliyini bu günlər sanki iflic vurub. Almaniya məsuliyyəti götürüb, konkret addım atmaq istəmir. Qəzet hesab edir ki, bir-iki baş naziri işdən qovmaqla vəziyyəti bir neçə ay əvvəl düzəltmək olardı. Avrozona o nöqtəni artıq keçib. Avrozona uçurumun kənarındadır. Bəzi ölkələrin başçıları bunu başa düşmürlər ya da başa düşmək istəmirlər.

**QLOBALLAŞMA PARADOKSU**

"Reuters" indiki iqtisadi böhranın siyasi nəticələrinə də toxunur və yazır ki, Harvard Universitetinin professoru Dani Rodrik bu ilin əvvəlində çıxan kitabında təkid edirdi ki, iqlisadi qloballaşma, milli suverenlik və demokratik siyasət birlikdə ola bilməz. Bunlardan istənilən ikisi bir yerdə ola bilər, ancaq üçü bir araya gələ bilməz. Rodrik bunu "qloballaşma paradoksu" adlandırır.

***Elxan Nəsibli***

# Evlərin sənədləşdirilməsi gözlənilirmi?

## Bu haqda qanun layihəsi var, amma...


Bakıda neft buruqları arasında tikilmiş bu cür evlərin sənədləşdirilməsi sual altındadır.

**«Dünən bələdiyyədən gəlmişdilər, evi sənədləşdirmək üçün sənədləri yığırdılar. Qonşularımız da nə vaxtdır sənədlərini veriblər, hələ də xəbər yoxdur. 3 ilə yaxındır burda yaşayırıq, evi hələ də sənədləşdirib bir tərəfə çıxarda bilmirik». Bu, Suraxanı rayonu ərazisində yeni salınmış Şimal-Şərq yaşayış massivinin sakini Azər Fərəcovdur.**

### SƏNƏDLƏŞMƏ ÜÇÜN 5 MİN MANAT İSTƏYİBLƏR

Sabunçu rayonu ərazisində yaşayan Vəfa Əsədova da deyir ki, yığhayığdır: «Bələdiyyədən gəliblər ki, illik torpaq haqqını da ödəyin, sənədlərinizi də gətirin, deyirlər, ev sənədləşəcək, prezidentin qərarını gözləyirlər». Vəfa Əsədovanın sözlərinə görə, yaşadığı ev çoxdan köhnəlib - 14 il əvvəl tikdirib. Ancaq sənədləşməsinə ən azı 5 min manat istəyiblər. Pulu olmadığından o da sənəddən əlini çoxdan üzübmüş.

Prezident İlham Əliyev bu il martın 9-da Bakı Şəhər İcra Hakimiyyətində keçirdiyi müşavirədə Bakı və Bakıətrafı ərazilərdə sənədsiz evlərin sənədləşdirilməsinə dair mexanizmin hazırlanması barədə şəhər icra hakimiyyətinin başçısı Hacıbala Abutalıbova tapşırıq vermişdi. Sənədsiz evlərin sənədləşdirilməsi üçün ilkin layihənin hazırlanaraq parlamentə təqdim olunduğu barədə məlumatlar var. Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, millət vəkili Çingiz Qənizadə deyir ki, ən yaxın vaxtda layihə tanışlıq üçün millət vəkillərinə paylansın.

### «İLKİN LAYİHƏDƏ BOŞLUQLAR VAR»

İqtisadi Təşəbbüslərə Yardım (İTY) İctimai Birliyinin eksperti Rövşən Ağayev deyir ki, sənədsiz evdə yaşayanların səbirsizliklə gözlədikləri layihə ilə tanış olub. İlkin layihə belə adlanır: ««Mülkiyyət hüquqları qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməyən yaşayış evləri və torpaq sahələri üzərində hüquqların leqallaşdırılması haqqında».

Layihədə göstərilib ki, magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik xətlərinin, metropolitenin, dəmir yolu qurğularının üzərində tikilmiş evlərə sənəd verilməyəcək. Eyni qadağa müdafiə obyektləri, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğuları, neft buruqları, avtomobil yollarının və suların mühafizə zolaqlarında yerləşən torpaq sahələrinə də aiddir. Həmçinin sürüşmə zonası və onların üzərindəki evlər də sənəd ala bilməyəcək. Bura meşə və su fondu torpaqlarında, müdafiə təyinatlı torpaqlarda tikilən evlər də daxildir. Neft və qaz yataqlarının işlənməsi, neftin, qazın hasilatı, nəqli üçün müvafiq təsərrüfat subyektinin qanuni istifadəsində olan torpaqlarda tikilən evlərin də sənədləşdirilməsi mümkün olmayacaq. Əgər həmin ərazilər neft hasilatına yararlıdırsa».

Ekspertin fikrincə, bu, o deməkdir ki, layihəyə dəyişikliklər və əlavələr olunmasa sənədsiz evlərin böyük hissəsi yenə də sənədləşdirilməmiş qalacaq: “Layihə yalnız qanuniləşdirilməsi mümkün olan evləri əhatə edir”.

### NEFT ŞİRKƏTİNİN İDDİA ETDİYİ ƏRAZİLƏR

Bayıl sakini Gözəl Əliyeva deyir ki, bir neçə ay əvvəl gəlib evlərini siyahıya alıblar ki, sənəd verəcəklər. Ancaq sonradan onlara məlum olub ki, siyahıya alınmada məqsəd əslində Dövlət Neft Şirkəti tərəfindən evlərindən çıxarılmaları üçün məhkəməyə verilmələrinə hesablanıbmış. Siyahıya alınma bitəndən sonra məhkəmədən bildiriş alıblar. Hazırda evlər məhkəmə qətnamələri ilə hissə-hissə boşaldılır. Bayılda belə evlərin sayı 10 mindən artıqdır. Bu evlərdə 40-cı illərdən yaşayanlar var. Əksər belə evlərin tikintisi üçün Dövlət Neft Şirkətinin razılıq sənədi və yerli icra hakimiyyətinin verdiyi icazə sənədi də var.

### SUBYEKTİV MƏSƏLƏ

Ekspert Rövşən Ağayev hesab edir ki, layihə hazırlanarkən diqqət əsasən Dövlət Neft Şirkətinin iddia etdiyi ərazilərdə və qəza zolaqlarında tikilmiş evlərə yönəlməli idi: «Layihədə konkret şəkildə məsələ qoyulur ki, neft hasilatı ilə bağlı ərazinin yararlığı sübut olunarsa... Yenə deyirəm, bu, çox subyektiv məsələdir, bir rəy verəcəklər ki, bu ərazinin neft hasilatı üçün yararlılığı var, vətəndaşlar kütləvi şəkildə çıxarılsın».

Ekspert belə evlərin sənədləşdirilməsinin mümkün olmadığı halda layihədə kompensasiya ilə bağlı müddəanın olmamasını da layihənin natamam işlənməsi ilə əlaqələndirir. Hesablamalara görə, Bakı və Bakıətrafı qəsəbələrdə təqribən 400 min sənədsiz ev tikilib.

***Esmira Cavadova***

# Devid Kemeron: "Ərəb baharı" İslamla demokratiyanı bir araya gətirdi



**"Ərəb baharı" sübut etdi ki, İslam və demokratiya bir-birinə uyğun olan məfhumlardır. Qurban bayramına həsr olunmuş toplantıdakı çıxışında Böyük Britaniyanın baş naziri Devid Kemeron belə deyib. O bildirib ki, Böyük Britaniya bir çox müsəlman ölkəsinin ayağa qalxmasına kömək edib. O, hazırda Qərbin İslama qarşı savaşa çıxması fikrini də təkzib edib:"Böyük Britaniyanın müsəlmanları öz inancları ilə fəxr etməlidirlər. Bu bayram mənə İslamla xristianlığın ümumi çalarlarını xatırlatdı. Həzrəti İbrahimin etdiyi qurban bütün dinlər tərəfindən hörmətlə qəbul edilir".**

Baş nazir Qurban bayramının kökündə duran hadisədən çox dərs çıxartmaq mümkün olduğunu deyib: "Bu, faktiki olaraq onu göstərir ki, peyğəmbər Allahı sevdiyi kimi, biz də sevdiklərimiz uğrunda qurban verməyə hazırıq".

D.Kemeron Liviya, Tunis və Misirdə insanların təkcə Qurbanı deyil, azadlığa çıxdıqlarını da bayram kimi qeyd etdiklərini deyib: "Yəqin ki, "Ərəb baharı" ilə bağlı bəzi şeylər istənilən kimi alınmaya bilər. Bəlkə də hardasa geriyə addım da ola bilərdi. Amma "Ərəb baharı" İslam və demokratiyanın bir araya sığmaması mifini birdəfəlik ləğv etdi".

# Radikal islamçılıq daha çox hansı təbəqələr üçün cəlbedicidir?

**"Wall Street Journal" qəzetinin Asiya buraxılışının köşə yazarı Sadanand Dhumenin Azad Avropa və AzadlıqRadiosunun müxbiri Frud Bezhana müsahibəsi.**

*- Radikal İslam anlayışını necə səciyyələndirərdiniz?*

- Mən buna belə baxıram: İslam dünyanın ən böyük dinlərindən biridir və ona 1,1 milyard insan tapınıb. Radikal islamçılıq müsəlmanların az bir qısminin inandığı siyasi ideologiyadır. Sıravi müsəlman isə o kəsdir ki, inanclıdır, sadəcə, öz həyatını yaşamağa çalışır. Amma radikal islamçı inanır ki, onun həyatının qayəsi dünyanı Allahın buyruqlarına uyğun dəyişdirməkdir.

*- Sizcə, radikal İslam cəmiyyətin hansı sahələrində daha güclüdür?*

- Radikal Islam xüsusilə təhsilli müsəlman gəncləri arasında populyardır. Onları bu ideologiyada cəlb edən cəhət həmin ideologiyanın bütün suallara verdiyi çox asan cavablardır. Bir çox hallarda həmin gənclər ailənin təhsil almış ilk övladıdır. Onların ixtisası adətən mühəndislik, riyaziyyat, tibb və s. sahələrlə bağlıdır. Onların düşüncə tərzi mexanikidir və əgər onlara cəmiyyətin problemlərini Şəriət qanunlarının tətbiqi ilə həll etmək təklif olunursa, onlar bu bəsit yolu asanlıqla qəbul edirlər. Onda onlar üçün hər şey yerbəyer olur.

*- İndi müsəlman dünyasında radikal İslamla mötədil İslam arasında rəqabətdə qalib gələn hansı tərəfdir?*

- Radikal Islamla mötədil İslam arasında rəqabət hələ çox davam edəcək. Mötədil İslamın xeyrinə olan cəhət odur ki, bütün başqa dinlərdə olduğu kimi, İslamda da insanların çoxu mötədildir. Amma digər tərəfdən radikal



Sadanand Dhume

islamçılar çox yaxşı təşkilatlanıblar. Onların bəlli hədəfləri var və bəzi yerlərdə onlar güclənirlər. Məncə, üstün olan tərəf mötədil islamçılardır. Amma "kimin inkişaf sürəti daha böyükdür" – sualının cavabında mən deyərdim ki, bir çox yerlərdə radikal islamçıların.

**• Radikal islamçılar qeyri-radikal hala gətirilə və cəmiyyətə inteqrasiya edilə bilərmi?**

**• Sizcə, İslam hansı istiqamətdə gedir, həm yaxın, həm də uzaq perspektivdə?**

**Sualların cavabı AzadliqRadiosu.az saytında.**

# Dünyada ilk dəfə - "Halal" viski

**Floridada fəaliyyət göstərən Scottish Spirits Ltd şirkəti sıfır faiz alkoqollu viski düzəldib. İstehsalçılar iddia edirlər ki, tərkibində qətiyyən alkoqol olmayan yeni "ArKay" viskisi ayıq qalmaq istəyənlər, içkili halda maşın sürməkdən narahat olanlar üçün ideal vasitədir. Alkoqol olmadığına görə bu məhsul həm də "Halal" sertifikatı alıb ki, bu da "ArKay"ın müsəlman ölkələrinin bazarına çıxışını təmin edəcək. Sıfır faiz alkoqol sayəsində həm dindar, həm də xəstə insanlar istədikləri qədər viski içə biləcəklər.**

Ənənəvi viski istehsalçıları isə yeni məhsulun yaradıcılarına qarşı üsyan qaldırmağa hazırdırlar. Şotlandiya Viski Assosiasiyasının təmsilçisi belə bir məhsulun hazırlanmasını mümkünsüz hesab edir: "Alkoqolsuz viski hazırlamaq mümkün deyil. Bu şirkət çox məsuliyyətsiz marketinqlə viskinin nüfuzunu yerə vurur".

Scottish Spirits Ltd tərəfindən hazırlanan alkoqolsuz "ArKay" viskisi Panama fabriklərindən istehsal olunur. İstehsalçılar deyirlər ki, onlar suya bir çox kimyəvi maddələr, aromatlar və rəngli maddələr qatmaqla içkinin dadını əsl viskiyə bənzədirlər. Sıfır faizli halal viski dekabrın 1-dən etibarən satışa çıxarılacaq.

# Çingiz Hüseynov: «Yazılanları oxuyan yoxdur!»


Çingiz Hüseynov

**Azərbaycanın və bütövlükdə müsəlman Şərqinin böyük düşüncə adamı, maarifçi və yazıçı-dramaturq Mirzə Fətəli Axundovun 2012-ci ildə 200 yaşı tamam olur. Müsahibimiz hələ Sovetlər dönəmində onun haqqında Azərbaycan və rus dillərində «Fətəli fəthi» adlı roman yazmış ünlü yazar Çingiz Hüseynovdur. Uzun illərdir Moskvada yaşayan Çingiz bəylə söhbətimiz «Fatalnıy Fatali» romanının Moskvada təkrar nəşriylə üst-üstə düşdü.**

*-Çingiz bəy, xoş gördük, vəziyyətiniz necədir?*

- (Gülür) Mənim vəziyyətim yaşa bağlıdır. Allaha şükür ki, şikayət etməyə səbəb yoxdur. Canım-başım yaxşıdır. Çalışıram, dərsimi deyirəm. Yuxularımı yazıb çap etdirirəm. 20-dən çox yuxum çap olunub. «Turan» Agentliyi mənə portal ayırıb, hər həftə iki dildə yuxularımı yazıram - contakt.az-da, təxminən iki səhifəlik yazılardır. Bəzi yuxularımı göndərəndə, deyirdim ki, çap eləməyəcəklər, qorxacaqlar. Deyirdim, bu yazılar ya çap olunmayacaq, ya da çap olunsa, zəlzələ başlayacaq Azərbaycanda... Amma... Oxuyan yoxdur, Sevda xanım! Yazıları oxuyan yoxdur!

*- «Fətəli fəthi» yenidən nəşr edilib...*

- Bu romanı mən 70-ci illərin ortalarında yazıb bitirdim. Amma onu uzun müddət çap etdirə bilmədim. Çünki ilk dəfə milli yazıçı sovet dövründə çar Rusiyasının müstəmləkə siyasətini açıb göstərib ifşa etmişdi. Milli yazıçılara bu icazə yox idi. Senzura buraxmırdı belə yazıları. Çar müstəmləkə siyasətini Tolstoy da tənqid edib, başqa rus yazıçıları da. Onlara olardı, bizə yox. Hətta rusca çapından sonra Azərbaycan dilində çıxanda, Azərbaycan senzurasının çox güclü iradları oldu. Dedim, axı, bu, rus dilində çıxıb? Dedilər, milli respublikalarda senzuranın vəzifəsi başqadır. Amma mən vəzifəmdən və tanışlıqdan istifadə edib kitabı Bakıda buraxdıra bildim.

Mirzə Fətəlinin anadan olmasının 200 illiyi ilə bağlı da romanı təkrar çap etməli olduq. Sponsor da tapıldı. Nə zamansa roman əsasında üçseriyalı ssenari də yazılmışdı, film çəkilməliydi, amma Sovetlərin dağılışı buna əngəl oldu. Çox mürəkkəb, faciəvi şəxsiyyətin taleyini vermişəm mən bu romanda...

**MİRZƏ FƏTƏLİNİN ƏDƏBİYYATA TƏSİRİ GÜCLÜ DEYİL?!**

*- Sizin üçün Mirzə Fətəli kimdir?*

- Mirzə Fətəlinin bir dramaturq kimi, şair kimi, nasir kimi təsirindən daha çox, təcrübəsi bizim üçün önəmlidir. Onun bəzi cəhətlərini qəbul etməliyik, bəzilərini yox. Mirzə Fətəlinin Azərbaycan ədəbiyyatına təsir qüvvəsi o qədər də güclü deyil. Onu Mirzə Cəlillə, Sabirlə müqayisə etmək olmaz. Amma bir ictimai xadim kimi, bir faciəvi şəxs kimi, Azərbaycan millətinin taleyini düşünən şəxs kimi bizim üçün çox maraqlıdır. Mirzə Fətəlinin bütün dinlərə münasibəti mənfi idi. Amma İslama münasibəti sərt idi. O zamanlar bütün dinlər həyatda, fəaliyyətdə özünün çox iyrənc üzünü göstərmişdi. Çünki din adıyla iyrənc işlər görülürdü. Həm xristianlar, həm də müsəlmanlar tərəfindən. Ona görə ateizm çox güclü idi o zaman. Bəlkə də Mirzə Fətəli «bizim geri qalmağımız dinlə və əlifbayla bağlıdır» deməkdə müəyyən dərəcədə haqlı idi. Amma indi baxıb görürük ki, haqlı deyilmiş... Bu da onun faciəsiydi və o faciəni göstərmək lazım idi. Bilmirəm, fikrimi çatdıra bildimmi?

*-Çatdırdınız, çatdırdınız...*

**Müsahibənin tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**

***Sevda İsmayıllı***


Forumun aparıcısı Feyziyyə

## Meyxana nədir? Xalq yaradıcılığı, yoxsa bayağı söz yığını?

Ara şairlərinin qafiyəpərdazlığı, yoxsa xalqın ürəyindən xəbər verən şeirlər? TV və radiolarda meyxana verilişlərinin çoxluğu sizi qıcıqlandırırmı? AzadliqRadiosu.az saytının "Oxu zalı"nın Facebook səhifəsində keçirdiyimiz müzakirəyə yazarlar Səlim Babullaoğlu, Sayman Aruz, Hafiz Mirzə və başqaları qatılıblar. Mövzu ilə bağlı foruma 200-dən çox şərh yazılıb. Qızğın müzakirəni siz də oxuyun və siz də öz fikrinizi yazın.




## "Fikir Sexi" təqdim edildi

Noyabrın 9-da "Əli və Nino" kitab evində "Fikir Sexi" kitabının təqdimatı keçirilib. "Fikir Sexi" kitabında dünyanın ən məşhur şəxslərinin – yazıçıların, rejissorların, aktyorların, fikir adamlarının, müğənnilərin, idmançıların, siyasi xadimlərin və digərlərinin maraqlı 70-ə yaxın müsahibəsi toplanıb. Kitab şəhərin bütün kitab mağazalarında satılır.

## AzadlıqRadiosunun "Oxu zalı"nda oxuyun:

- "Xaç atası" - Azərbaycan dilində!
- Putinlə Medvedevi ələ salan şeirlər...
- Vaqif Səmədoğlu: "Dinlərin bizə aşıladığı Allaha mən inanmıram"
- Əlif Şəfəq Orxan Pamukun uğurunu təkrarlaya biləcəkmi?
- Dünyada ən çox məşhur insan hansı ölkədə yaşayır? Şok nəticə!

# Zorən bakılı...

**«Can Bakı» proqramının açdığı yeni- «Bakıdan bölgələrə baxanda» rubrikasının ilk qonağı olan Yafəz Əkrəmoğlu 4 ildir Bakıda yaşadığını, özünü bakılı saymadığını bildirdi: «Bakıda yaşamağa məcbur oldum. Orada yaşamağa imkan vermədilər. 2007-ci ildə məni Naxçıvandan çıxmağa məcbur etdilər. Ailəmi götürüb çıxdım».**


Yafəz Əkrəmoğlu

**NAXÇIVAN 70 FAİZ BOŞALIB...**

Y.Əkrəmoğlu Naxçıvanın 70 faiz boşaldığını iddia etdi: «Camaat çıxıb ordan. Fəal kəsim qalmayıb. Əksəriyyət Bakıda, xarici ölkələrdədir». Aparıcının: «Televizorda Naxçıvan çox qəribə görünür. Təmiz, səliqəli, aydın səmalı, amma adamsız» fikrini Y.Əkrəmoğlu belə tamamladı: «Mənə də hərdən deyirlər ki, nə var, Naxçıvan çox səliqəlidir, gözəldir. Elələrinə konkret cavabım var: Çünki çirkləndirməyə adam yoxdur!».

Müxbirimiz bu bölgədə iməciliyin normaya çevrildiyini bildirdi: «Hər şənbə-bazar bütün ziyalılar küçə süpürürlər». Y.Əkrəmoğlu muxtar respublikada azad mətbuatın olmadığı fikrindədir: «3-4 azadfikirli jurnalist var, onların da ağlasığmaz üsullarla qarşısını alırlar...».

**SADƏ ADAMLAR NECƏ YAŞAYIR?**

Y.Əkrəmoğlu Naxçıvanda çox şeyin adiləşdiyini söylədi: «Qıraqdan baxanda


Naxçıvan şəhəri

heyrət doğuran işlər baş verir. Amma orada ona adi yanaşırlar. Çox çətin yaşayırlar. Dolanışıq yoxdur. Maaş çox aşağıdır. Xarici ölkələrdə işləyənlər ailəsinə pul göndərir».

**ÖZÜM ŞAHTAXTI KƏNDİNDƏNƏM...**

Məşhur Şahtaxtı kəndindən olan Yafəz vaxtilə kənddə gömrük məntəqəsi olduğunu bildirdi: «Təxminən 7-8 il öncə ətraf kəndlər də sərhəddə alverlə dolanırdı. İndi mal buraxılmır. Bu yaxınlarda mən o məntəqədə oldum. Deyilənə görə, bu səlahiyyət bir-iki nəfərin əlindədir, ancaq onlar mal gətirə bilər. Camaatın hətta ev üçün gətirdiyi bəzi ərzaq məhsullarını belə buraxmırlar. Əvvəllər Türkiyədə 3 ay işləməyə icazə verirdilər. İndi onu da bir aya endiriblər. Getməyə dəyməz».

**ZİYALILAR NECƏ DOLANIR?**

«Dörd ildir Bakıda yaşayırsan, naxçıvanlı ziyalıların bakılı ziyalıdan nə fərqi var» sualı belə cavablandı: «Naxçıvan ziyalıları özlərini aşağı səviyyədə-aşağılanmış hiss edir. Çünki müəllim şagirdlə bərabər küçə süpürməyə çıxır. Etiraz etsə, işini itirər».

**BİR «CAN NAXÇIVAN!» SÖYLƏRSƏNMİ?**

Sonda aparıcının bu ənənəvi xahişini Y.Əkrəmoğlu belə cavabladı: ««Can» sözü iki mənadadır. Biri sevinc ifadə edirmən «Can Bakı!» deyəndə, o mənada dedim. Kiminsə kədəri, dərdi olanda da ona can deyirsən. Mən ikinci mənada deyərəm: «Can Naxçıvan!».

**• XƏSTƏ NİYƏ KEÇİNDİ?**
**• MƏKTƏBDƏN MƏHƏMMƏD AĞANIN ADI NİYƏ GÖTÜRÜLDÜ?**

**Söhbətin tam mətni AzadliqRadiosu.az-da.**




"250 plyus" gerçəkliyə fərqli baxışdır. AzadliqRadiosu.az saytında gülüş doğuran və düşündürən videosüjetlərə siz də baxın.

- Qanacaqdoldurma məntəqəsi hardadır?
- Bakıda kütləvi "zəhərlənmə"
- Pula "pul" deməyən hökumət

# AzadlıqRadiosu canlı - indi bütün mobil telefonlarda...

**Əziz "Azadlıq" Sevərlər!**

Bunun üçün mobil telefonlarınız GPRS və ya Wi Fi İnternet şəbəkələrini dəstəkləməlidir. Aşağıdakı sadə prosedurları etsəniz, günün 24 saatı radiomuzu canlı dinləyə biləcəksiniz. Qeyd edək ki, bütün proses 1-2 dəqiqədən çox çəkmir. Mobil telefonlar üçün İnternet Radio proqramını aşağıdakı ünvandan endirin. Mobil telefonlar üçün internet radio proqramını aşağıdakı ünvandan endirin.

***http://azadlig.info/radio.zip***

Proqramı zip-dən azad edib - radio.jar faylını USB və ya Bluetooth vasitəsilə mobil telefonunuza yerləşdirib yükləyin. Bu zaman telefonunuzda aşağıdakı nişanlı proqram peyda olacaq.




Onu işə salın. Aşağıdakı şəkildəki proqram açılacaq.




Play-i basın, bir neçə saniyədən sonra AzadlıqRadiosunu canlı dinləyə bilərsiniz. Proqramı idarə eləmək çox sadədir.

Qeyd edək ki, internet radio proqramını siz internetdən birbaşa telefona da yükləyə bilərsiniz. Bunun üçün aşağıdakı ünvana mobil telefonunuzdan daxil olun:

***http://azadlig.info/radio.jar***

Əgər sizin mobiliniz «Android», «Apple» və ya «BlackBerry» sistemli telefondursa, nəzərinizə çatdırırıq ki, bu modellərin özünün internet radio sistemləri vardır.

GPRS mobil internetdən istifadə edirsinizsə sizə ucuz başa gəlməsi üçün yaxşı olar ki, qabaqcadan GPRS trafik paketi alasınız («Azadlıq»ın dalğası 32 Kbit/san ilə yayılır).

# Alman jurnalisti Putinin ailə problemlərindən yazıb...


Vladimir Putin və həyat yoldaşı Lyudmila

Rusiyanın indiki baş naziri və mümkün gələcək prezidenti Vladimir Putinlə 28 illik həyat yoldaşı Lyudmilanın gah boşanması, gah da cütlük arasındakı sevgiyə dair zaman-zaman informasiyalar yayılıb. Ola bilsin həqiqət bu ikisinin arasındadır.

**ARVADBAZ PUTİN**

Alman kəşfiyyatı üzrə ekspert və jurnalist Erich Schmidt-Eenboom deyir ki, Qərbi Almaniyadan olan bir qadın xəfiyyə Putinin Drezdendə qaldığı beş il müddətində onun ailəsindən informasiya toplaya bilib. Jurnalist deyir onda sübutlar var. Həmin qadın aşkarlayıb ki, Putin əməlli-başlı arvadbaz olub, arvadını da tez-tez döyürmüş. Schmidt-Eenboom Almaniyanın BND xarici kəşfiyyat agentliyi barədə xeyli kitab və əsərlər yazıb. Onun bildirdiyinə görə, həmin agent Lenchen və ya Lenoçka adıyla fəaliyyət göstərib:«O, tezliklə Lyudmila Putina ilə dostlaşıb, onun inandığı şəxsə çevrilib. Lyudmila ona danışıb ki, Vladimir tez-tez onu döyürmüş, aldadırmış, başqa qadınlarla görüşürmüş».

Jurnalistin dediyinə görə, Lenchen rus və alman dillərində eyni səlisliklə danışan Baltik almanı olub. Dil bilmək bacarığı sayəsində o, KQB-nin Drezdendəki kiçik bürosunda işə düzəlib, Sovet İttifaqının Şərqi Almaniyada yerləşən Qərb Qüvvələrinin rəsmi tərcüməçisi işləyib.

**GÜZƏŞTƏ GETMƏYƏN VƏ EHTİRASLI PATRİARX**

Büroya rəhbərlik edən KQB polkovniki ilə romantik münasibətlərdən sonra hamilə qalan Lenchen xahiş edir ki, onu işdən çıxarsınlar. Qadın həmçinin Putin ailəsində xəfiyyəlik etdiyindən psixoloji stress keçirirmiş. Onu Qərbi Almaniyaya çağırırlar, yeni vəsiqə verib xidmətdən buraxıblar. Schmidt-Eenboom deyir ki, ona yaxşı kompensasiya veriblər: «O, indi Almaniyanın cənubunda qayğısız həyat yaşayır».

**ALİNA KABAYEVA, «SOYUDUCU»**

Son illər Putinin arvadı ilə ictimaiyyət arasına çıxması nadir görüntü sayılır. 59 yaşlı baş nazirin adı tez-tez keçmiş Olimpiya gimnastı, Rusiya Dumasının yaraşıqlı üzvlərindən olan Alina Kabayeva ilə də birgə çəkilir. Kreml bir vaxtlar Putinin ailəsinin xoş portretini yaratmağa da cəhd edib. Bu cütlüyün romantik dövrünü əks etdirən «Kadrarxası öpüş» filmi 2008-ci ildə Valentin Günündə yayılıb.


Alina Kabayeva Vladimir Putinlə görüş zamanı

***Alexander Mannheim, Daisy Sindelar***

# 100 il sonranın nadir videosu

**Qeyri-adi təqvim günü: 11.11.11**




Təqvimin belə düzülüşü bir də 100 il sonra mümkün olacaq. Bu, təqvimin adi düzülüşdür, yoxsa qeyri-adi tarix? AzadlıqRadiosunun 11 əməkdaşının eyni vaxtda - 11 noyabr, saat 11-də müxtəlif yerlərdə çəkdikləri həm adi, həm də unikal görüntülər.

**AzadliqRadiosu.az saytında bu videoya baxın.**

# AzadlıqRadiosunda verilişlər:

*Unutmayın:* Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

# Simsiz teleqraf

## Su servisi




«Bakı bazarlarında reklam» seriyasından. **Yüklədi:** Rayif

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:** efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

24 saat

necə dinləməli...

HotBird 13⁰E

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

TÜRKSAT 42⁰ E

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Mobil telefonda canlı

İndi GPRS və ya Wi Fi İnternetlə günün 24 saatı radiomuzu canlı dinləmək olur...
Ətraflı: **AzadliqRadiosu.az**-da

## Yeni veriliş: AzadlıqFM

Ən fəal FB istifadəçiləri
yaradıcı adamlar -
bəstəkar Firudin Allahverdi
yazar Əli Əkbər
aparıcı Xədicə İsmayılovanın
qonaqlarıdır...




**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

Bizimlə əlaqə:

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30



Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz